**Quluzadə F.R. ♦**

## Cinayət işlərinin ayrılmasının əsaslılığı

**Annotasiya**: Cinayət işlərinin ayrılmasının (bölünməsinin) problemləri, qəbul edilmiş qərarların qanuniliyini əsaslandıran hallar nəzərdən keçirilir.

Cinayət işlərin ayrılmasının əsasları və məqsədləri, cinayət təqibi üzrə icraatı ayrılması ilə cinayət işin ayrılmasının qarşılıqlı münasibətləri tədqiq edilir.

Yetkinlik yaşına çatmayanlara münasibətdə icraatın ayrılması məsələlərinə xüsusi diqqət ayrılıb.

Cinayət-prosessual qanunverciliyiə əlavə və dəyişiklər edilməsi üçün təkliflər verilib.

**Təyinedici sözlər**: cinayət işi; cinayət təqibi; icraat; ayrılma; müstəntiq; prokuror; məhkəmə; ayrıca icraat; yetkinlik yaşına çatmayan.

Bundan əvvəlki fəsildə cinayət işlərinin birləşdirilməsinin əsaslılığı və qanuniliyindən bəhs edərkən “əsaslılıq” anlayışlarının mahiyyəti və onların qarşlıqlı əlaqəsi barədə ətraflıməlumat verildi. Həmin anlayışların etimoloji və terminoloji mənası ilə bağlı cinayət işlərinin birləşdirilməsinə dair ümumi mülahizələr eynilə cinayət işləerinin ayrılması haqqında məsələyə də analoji qaydada şamil olunur.

Artıq qeyd olunduğu kimi, ittihamın vahid və bölünməz predmeti haqqında qayda cinayət işlərinin ayrılması haqqında qəbul edilməsi zəruri olan qədər üçün meyarlar rolunu oynayır.

Faktiki cəhətin eyniadlı elementlərinin üst-üstə düşməməsi o deməkdir ki, həmin eyniadlı elementlər tamamilə müstəqildirlər və onların arasında heç bir əlaqə mövcüd deyil. Məhz, buna görə də onlar bir cinayət işi çərçivəsində araşdırıla bilməzlər. İttihamın yeni predmetinin elementlərindən heç birininittihamın əsas (tədqiq edilən) predmeti ilə üst-üstə düşmədiyi konkret cinayət işinin istintaqı gedişində belə halların

---

♦ **Quluzadə Fərəc Rasim oğlu** – hüquq üzrə fəlsəfə doktoru, Beynəlxalq Hüquq Tədqiqatları Təşkilatının üzvü (Azərbaycan). E-mail: mopi_sid@yahoo.com

aşkar olunması tamamilə müstəqil ittiham predmetinin mövcudluğu və onların müstəqil icraata ayrılmasının zəruriliyini göstərir.

Cinayət işlərinin ayrılmasının əsasları qismində, məsələn, cinayətdə iştirakçılığın nəzərdən keçirilməsi zamanı həmin cinayət əməlinin cinayət-hüquqi xarakeristikasına əsaslanmaq zəruridir.

Qeyd etmək lazımdır ki, iştirakçılıqla törədən cinayətlər sosial və hüquqi xüsusiyyətləri ilə fərqlənirlər. Sosial baxımdan iştirakçılıqla törədən cinayətlər adətən, təkbaşına törədən cinayətlərdən daha təhlükəlidir. Malik olduqları spesifik hüquqi xüsusiyyətlər isə onların cinayət hüququnun müstəqil institutu kimi fərqləndirməyə imkan verir.

İştirakçılıq tövsifedici əlamət olduğuna görə, belə əməllərin ayrıca bir icraata ayrılması yolverilməzdir. İştirakçılara münasibətdə isə cinayət işinin ayrılması onların ümumi sayından asılı olmayaraq ümumiyyətlə yolverilməz hesab olunur. Ona görə də cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərin sayı həddindən çox olduqda istintaq qrupu yaradılır.

Bəzən qanunvercilikla nəzərdə tutulan hallarda cinayət işinin müstəqil icraatlara ayrılması zərurəti yarandıqda, yenə də iştirakçılar haqqında işlərin ayrılması barədə qaydada əməl olunması tələb edilir. Belə hallarda cinayət işlərinin ayrılması zamanı əməlin tövsifindən hər bir iştirakçı barəsində iştirakşılıq əlamətinin çıxarılması zərurəti yaranır. Yəni bir mürrəkəb predmetli ittihamdan ayrılma zamanı iki müstəqil ittiham predmeti yaranır. Belə yanaşma ittiham predmetinin bölünməzlik prinsipinə əməl olunmasını təmin etmiş olur.

Cinayət hüququ nəzəriyyəsindən cinayətlərin təkrar törədilməsi ilə bağlı müddəalar bu kateqoriyaya aid edilən cinayət işlərinin həm birləşdirilməsi, həm də bir sıra hallarda ayrılaraq, onların müxtəlif icraatlarda istintaqı mümkün hesab olunur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16.3-cü maddəsinə uyğun olaraq əvvəllər törətdiyi cinayətə görə Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir [3]. Məhz, bu maddə baxımından göstərilir ki, cinayətlərin

təkrarlığının yaranması üçün əvvəlki cinayətə görə hüquqi nəticələrin mövcud olması tələb olunur. Əvvəllər törətdiyi eyni cinayətə görə cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxsin yenidən eyni cinayəti törətməsi təkrarlıq kimi qiymətləndirilə bilməz [1, s. 42].

Eyniadlı elementlərin hüquqi qiymətləndirilməsi zamanı faktiki cəhətin eyniadlı elementlərinin üst-üstə düşməsi ittihamın predmetinin həmişə mürəkkəb vahid və bölünməzliyi deməkdir. Əgər göstərilən eyniadlı elementlər müxtəlif cinayət işlərində aşkar edilmişdirsə, belə cinayət işlərinin birləşdirilməsi zəruridir. Belə hallarda cinayət işlərinin ayrılması yolverilməzdir.

İttiham predmetlərinin müxtəlifliyi zamanı faktiki cəhətin elementlərinin hüquqi qiymətləndirilməsi də müxtəlif olur. Bu halda ittihamın predmeti müstəqil olduğuna görə, səlahiyyətli orqan həmin cinayət işlərini ayırmağa haqlıdır və onların müxtəlif cinayət işləri kimi araşdırılmalıdırlar.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 50-ci maddəsinə uyğun olaraq cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir [4].

Bu normaların məzmununu izah edən müəlliflərin fikrincə, cinayət təqibi üzrə icraatın ayrılması zamanı 3 əsas şərtə riayət etmək lazımdır:

1) əgər buna zərurət yaranmışdırsa;

2) əgər icraatın ayrılması həm birinci, həm də eyni zamanda ikinci cinayət işi üzrə halların tam, hərtərəfli və obyektiv araşdırılmasına maneçilik törətmirsə;

3) əgər hər bir işin ayrı-ayrılıqda məhkəmə baxışını keçirmək mümkündürsə [5, s. 219].

Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirak etmiş, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs digər şəxslərlə birlikdə cinayət təqibinə məruz qalarsa, onun barəsindəki icraat ibtidai araşdırma zamanı mümkün qədər ayrıca icraata ayrılmalıdır.

Cinayət təqibi üzrə icraatın ayrılması müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə həyata keçirilir.

Işin hallarının hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılması dedikdə, iş üzrə sübut edilməli olan halların vaxtında və lazəmi qaydada müəyyən edilməsi, sübutların toplanması, qiymətlindirilməsi və iş üzrə irəli sürülən bütün fərziyyələrin yoxlanması başa düşülür. Cinayət işinin ayrıca baxılmasının mümkünlüyü isə, həm ilkin, həm də ayrılmış cinayət təqibi üzrə bütün halların müəyyən edilməsi üçün, istintaq hərəkətlərinin və ya digər prosessual hərəkətlərin, habelə məhkəmə baxışının müstəqil həyata keçirilə bilməsini özündə əks etdirir.

Cinayət təqibi üzrə icraatın ayrılmasının zəruri olduğu hallar cinayət-prosessual qanunvericilikdə birbaşa müəyyən edilmişdir. Belə ki,  Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2-ci maddəsinə görə müstəntiq və ya ibtidai araşıdrmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı şərtlərdən biri mövcud olduqda öz icraatında olan cinayət işinin materiallrından başqa cinayət işini ayrıca icraata ayırır:

1) təqsirləndirilən şəxsin ittiham edildiyi cinayətlə bərabər onunla bağlı olmayan,  təqsirləndirilən şəxs tərəfindən deyil, digər məlum və ya naməlum şəxslər tərəfindən təqsirləndirilən şəxsin iştirakı olmadan törədilmiş başqa cinayət müəyyən edildikdə;

2) ilkin cinayət işi üzrə icraat araşdırılan bəzi cinayətlərə aid olan hissədə dayandırılmalı olduqda;

3) ilkin cinayət işi üzrə icraat bir təqsirləndirilən şəxs barəsində dayandırılmalı olduqda və digər təqsirləndirilən şəxslər barəsində dayandırılmalı olmadıqda;

4) digər şəxslərlə yanaşı ilkin cinayət işi üzrə təqsirlədirilən şəxs qismində yetkinlik yaşına çatmayanlar cəlb edildikdə (icraatın ayrılması mümkündürsə);

5) qapalı məhkəmə baxışı üçün əsaslar bir təqsirləndirilən şəxsə aid olduqda, digərinə aid olmadıqda;

6) cinayət işinin həcminin həddən artıq böyüklüyü işdə iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsinə maneçilik törədikdə, araşdırmanı və işin məhkəməyə göndərilməsini yolverilməz dərəcədə uzatdıqda.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs cinayətin törədilməsində digər şəxslərlə birlikdə iştirak etdiyi halda məhkəməyədək

icraat (ibtidai araşdırma) mərhələsində onun barəsində cinayət işi imkan daxilində ayrıca icraata ayrılmalıdır. Burada söhbət cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş çatmamış şəxsin (onun qanuni nümayəndəsinin və ya müdafiəçisinin) barəsində cinayət təqibinə xitam verilməsinə etiraz etdiyi hallarda, habelə ağır və xüsusilə ağır cinayətin əlamətləri olan əməl törətmiş şəxs barəsində qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmənin tətbiq edilməsi üçün həmin şəxs barəsində icraatın ayrılmasından gedir [2, s. 133].

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə uyğun olaraq təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadıqda təqsirləndirilən (şübhəli) şəxsin razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz. Belə halda cinayət üzrə icraat Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada davam etdirilir və hökmün, məhkəmənin digər qərarının çıxarılması ilə başa çatdırılır.

Yetkinlik yaşına çatmayan şəxs cinayətin törədilməsində digər şəxslərlə birlikdə iştirak etdiyi halda məhkəməyədək icraat mərhələsində onun barəsində cinayət işi imkan daxilində ayrıca icraata ayrılmalıdır. Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işinin ayrıca icraata ayrılması işin hallarının hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün əhəmiyyətli maneələr yaratdıqda həmin işin ayrıca icraata ayrılmasına yol verilir (Cinayət-Prosessual Məcəllənin 431-ci maddəsi).

Cinayət işlərinin istintaqı gedişində iştirakçılardan hər hansı birinin cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi anda anlaqsız vəziyyətdə olması, yaxud cinayət törətdikdən sonra psixi xəstəliyə tutulması müəyyən edildikdə, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş cinayət işindən ayrıca icraata ayrılır.

Cinayət təqibi üzrə cinayət işi ayrıca icraata ayrılarkən cinayətkar fəaliyyətin hər hansı əlaqəsiz epizodlarını deyil, konkret olaraq təqsirləndirilən şəxslər barəsində cinayət təqibini ayrıca icraata ayırmaq lazımdır. Təqsirləndirilən şəxslərdən biri hüquq-mühafizə orqanlarından qaçıb gizlənirsə, bu vaxt onun barəsində cinayət işinin (ona aid olan hissənin) ayrlmasına yol verilir. Hüquq ədəbiyyatında qeyd olunur ki,

çox vaxt belə şəxslər barəsində cinayət işi üzrə icraat ayrıldıqdan sonra dayandırılır [2, s. 133].

Qeyd etmək lazındır ki, faktiki cəhətin ittiham predmetinin qarşılıqlı əlaqədə, lakin özünün hüquqi qiymətləndirilməsinə görə müstəqil olan elementlərinə həm birgə (bir cinayət işində), həm də ayrıca (müxtəlif cinayət işlərində) baxmaq olar. İttiham predmetinin eyniadlı elementlərinin qarşılıqlı əlaqəli bu tipinə cinayət işlərinin birləşdirilməsi və ayrılmasının əsaslılığı meyarı qismində ittiham predmetinin nəinki vahidliyi və bölünməzliyi tələbi, iş üzrə digər prinsip və tələblər də çıxış edə bilərlər.

Cinayət-prosessual qanunvericilik cinayət işləri üzrə həmin tələblərə aşağıdakıları aid edir:

1) insan və vətəndaşın konstitusiya hüquqlarının təminatına əməl edilməsi məqsədilə həmin hüquqların, habelə müvafiq şəxsin cinayət işinə baxılması ilə əlaqədar qanunla qorunan mənafelərinin təmin edilməsinin zəruriliyi;

2) müəyyən kateqoriya şəxslər (məsələn, yetkinlik yaşına çatmayanlar) barəsində cinayət işlərinin istintaqı zamanı həmin şəxslərin hərəkətlərinə aid olan hissənin mümkün qədər ayrıca icraata ayrılması zərurəti;

3) qanunla nəzərdə tutulduğu halda məsuliyyətə cəlb edilmiş şəxslərin istəyi nəzərə alınmaqla onların işinə andlılar məhkəməsində baxılması ilə əlaqədar cinayət işlərinin ayrılması zəruriliyi.

Cinayətlərin çoxluğu cinayətlərin təkrar törədilməsi kimi tövsifedici əlamət olmadığı hallarda (hüquqi qiymətləndirmə mövcud olduqda) ittihamın müstəqil predmeti mövcud olur. Bu onu göstərir ki, belə kateqoriyadan olan cinayətlərin ayrılmasına yol verilir. Digər tərəfdən həm proses, həm də ittihamlardan biri üzrə sübutetmənin özünün nəticələri nə cinayət prosesinə, nə də başqa ittiham üzrə sübutetmənin nəticələrinə təsir etmir. Həmin müddəa öz ifadəsini Cinayət-Prosessual Məcəllənin 49.2-ci maddəsində də tapmışdır.

Eyni zamanda, nəzərdən keçirilən qarşılıqlı əlaqə ittiham predmetinin ikinci eyniadlı elementlərinin üst-üstə düşməsini istisna etmir. Belə fakt bu ittihamlara bir

cinayət işində baxmağın hüquqayuğun olması haqqında fikirlər irəli sürməyə imkan verir. Lakin bu zaman ittihamların müstəqilliyi qorunub saxlanılmalıdır.

Beləliklə, ittiham predmetinin eyniadlı elementləri arasında qarşılıqlı əlaqənin nəzərdən keçirilən tipi - əməlin hüquqi qiymətləndirilməsinin üst-üstə düşməsi bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə müstəqil ittiham predmetinin olması deməkdir. Onların müəyyən edilməsi həm bir icraatda, həm də müxtəlif cinayət işlərində nəzərdən keçirməyə imkan verir. Belə faktiki halların birgə və ya ayrıca müəyyən edilməsi haqqında qərarın qəbul olunması zərurətini cinayət-prosessual qanunvericiliyinin bilavasitə özü nəzərdə tuta bilər. Şübhəsiz ki, belə tələb qanunverici tərəfindən həm cinayət işlərinin birləşdirilməsinə və ayrılmasına həsr edilmiş müvafiq maddələrdə, həm də ümumi göstəricilərdə nəzərdə tutula bilər. Bu zaman əsas şərt odur ki, onların tələblərinə əməl edilsin.

Cinayət işlərinin ayrılması ilə əlaqədər müstəntiq və ya prokuror tərəfindən müvafiq prosessual qərarın qəbul edildiyi zaman cinayət təqibi üzrə icraatın birləşdirilməsi hallarından fərqli olaraq, məhkəmənin qərarı ilə ayrılan və ayrıla bilən cinayət işlərinin dairəsi məhdudlaşdırılmışdır. Deməli, məhkəmə kifayət qədər səaslar olduqda cinayət işlərinin ayrılması haqqında qərar qəbul etməyə haqlıdır. Bu Cinayət-Prosessual Məcəllənin 49.5-ci maddəsində bilavasitə nəzərdə tutulmuşdur.

Cinayət işlərinin ayrılması haqqında müvafiq prosessual sənəd qəbul edilməzdən əvvəl ilkin cinayət işində hansı materialların (konkret sənədlərin) ayrılacağının dairəsi dəqiq müəyyən edilməlidir. Eyni zamanda, hansı sənədlərin bilavasitə əslinin (özünün), hansıların isə sürətlərinin çıxarıla bilinməsi dəqiqləşdirilməlidir. Əgər hər hansı bir sənəd ayrılmalı olan cinayət içinin materiallarına daxil edilərsə, bu halda ilkin cinayət işində onun sürətinin saxlanması vacibdir. Cinayət işlərinin ayrılması zamanı istintaq sənədlərinin sürətləri müvafiq prosessual və kriminalistik qaydada təsdiq edilməlidir.

Cinayət-Prosessual Məcəllənin 211.3-cü maddəsinə uyğun olaraq həmin Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasında maneələr olduqda başqa cinayət işi ayrıla bilməz [9]. Təbii

olaraq belə hallarda hər hansı prosessual qərarın qəbulu üçün heç bir əsas mövcud olmur.

Cinayət işlərinin ayrılması haqqında qərar və onun məzmunu cinayət-prosessual qanunvericiliyi tərəfindən tənzimlənir. Belə ki, Cinayət-Prosessual Məcəllənin 211.4-cü maddəsinə uyğun olaraq başqa cinayət işinin ayrılması haqqında qərarda aşağıdakılar göstərilməlidir:

1) cinayət işinin ayrılması üçün əsaslar;

2) cinayət işinin ayrılması səbəb olmuş epizodlar və şəxslər;

3) cinayət işinin ayrılmasına dair cinayəti nəzərdə tutan cinayət qanunun maddəsi;

4) cinayət işin sonrakı ibtidai istintaqının aparılması və öz icraatına qəbul edilməsi haqqında qərar.

Başqa cinayət işinin ayrılması haqqında qərara işə daxil edilən materialların siyahısı və qərarların, protokolların, sənədlərin, maddi sübutların sürətləri, yaxud əsilləri edilir.

Başqa cinayət işinin ayrılması haqqında qərara işə daxil edilən materialların siyahısının birinci nüsxəsi cinayət işi üzrə ilkin icraata, ikinci nüsxəsi isə ayrılan cinayət işi üzrə icraata əlavə edilir. Başqa cinayət işinin ayrılması haqqında qərarın sürəti 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

Başqa cinayət işinin ayrılması və onun gələcək istiqaməti barədə cinayət işi üzrə ilkin icraatda iştirak etmiş təqsirləndirilən şəxs, onun qanuni nümayəndəsi və müdafiəçisi, habelə qanuni mənafeləri ilə əlaqəli olduqda zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların qanuni nümayəndələri məlumatlandırılırlar.

Cinayət işlərinin ayrılması haqqında qəti qərarın qəbulundan sonra həll edilməli olan ən vacib məsələlərdən biri də istintaqın yeni müddətinin müəyyən edilməsidir. Qeyd etmək lazımdır ki, belə hallarla əlaqədər istintaqın müddətinin müəyyənləşdirilməsi bilavasitə cinayət-prosessual qanunverciliklə tənzim edilir.

Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 218-ci maddəsinə uyğun olaraq ibtidai istintaqın konkret müddətləri müəyyən edilmişdir. Hüquq ədəbiyyatında qeyd edilir

ki, ibtidai istintaqın keçirilməsi üçün Cinayət-Prosessual Məcəllənin 218.8-ci maddəsində nəzərdə tutulmuş müddətlər CPM-nin 218.6-cı, 218.7-ci və 218.8-ci maddələrində tutulmuş yuxarı vəzifəli prokurorlar tərəfindən həmin maddələrdə göstərilmiş ardıcıllıqla uzadıla bilər. Bu normalarda ibtidai istintaq müddətinin uzadılması üçün əsas kimi cinayət işinin müvafiq sürətdə mürəkkəbliyi, xüsusi mürəkkəbliyi və müstəsna mürəkkəbliyi göstərilmişdir. Belə mürəkkəblik cinayət əməlinin epizodlarının çoxsaylı olmasına, cinayət əməlinin bir neçə yerdə törədilməsində, bir neçə cinayət işinin bir icraatda birləşdirilməsində, cinayət işi üzrə çoxlu sayda təqsirləndirilən şəxslərin, zərər çəkmiş şəxslərin, şahidlərin olmasında, uzun müddət tələb edən istintaq hərəkətlərinin - mürəkkəb ekspertizaların, maliyyə-iqtisad yoxlamalarının və s. keçirilməsində və başqa bu kimi amillərdə ifadə oluna bilər [4, s. 643]. Şübhəsiz ki, cinayət işlərinin ayrılması da həmin amillərdən biri ola bilər.

Beləliklə, cinayət işlərinin, ittiham predmeti elementlərinin qarşılıqlı əlaqəlik dərəcəsinin nəzərdə alınması zaman ittiham predmetinin vahidlik və bölünməzliyi meyarına uyğun olaraq ayrılması haqqında qərarın qəbul edilməsi qanunun əsaslılıq kimi tələbini yerinə yetirilməsinə xidmət etməyə köməklik edir.

Yuxarıda göstərilənlər əsasında aşağıdakı nəticəyə gəlmək olar.

Cinayət işlərinin ayrılmasının əsaslı olması haqqında qərarın əsaslılığı konkret zəruri əsasları müəyyən edir. Məhz həmin əsaslar cinayət işlərinin ayrılması haqqında qərarın prosessual mahiyyətini təşkil edir. Müəyyən əsasın mövcudluğunu təsdiq edən kifayətedici sübutlarən olduğu zaman, məhz əsaslar ittiham predmetinin hədlərini düzgün müəyyən etmək zərurətini yaradır.

Cinayət işlərinin ayrılması haqqında qərarın qəbul edilməsi zamanı başlıca meyar kimi ittiham predmetinin vahidliyi və bölünməzliyi barədə norma çıxış edir.

Cinayət işlərinin birləşdirilməsinə və ya ayrılmasına tələbat aşağıdakı hallarda təzahür edir:

1) ittiham predmetinin bütövlüyünün (cinayət işlərinin birləşdirilməsi üçün zəruri olan əsasın) pozulması;

2) ittihamın digər predmetlərinin və ya onların elementlərinin mövcudluğunun (cinayət işlərinin ayrılması üçün zəruri olan əsasın) müəyyən edilməsi.

Nəzərdən keçirilən prosessual qərarın qəbul edilməsi mümkünlüyü ittiham predmetinin elementləri arasındakı qarşılıqlı əlaqəni müəyyən edir. İttiham predmeti elementlərinin arasındakı qarşılıqlı əlaqənin üst tipi fərqləndirilir ki, həmin fərqli cəhətlər barəsində əvvəlki fəslin birinci paraqrafında məlumat verilmişdir.

Beləliklə, cinayət işlərinin ayrılması institutunun qarşısında duran mühüm vəzifə konkret cinayət çərçivəsində ittihamın hədlərini düzgün müəyyən etməkdən ibarətdir. Bu da öz növbəsində cinayət işlərinin ayrılmasının əsaslılığı tələbinin yerinə yetirilməsinə, habelə cinayət işlərinin müxtalif icraatlara ayrılmasının qanuniliyinin təmin olunmasına xidmət edir. Cinayət işlərinin ayrılmasının əsaslılığı qəbul edilən belə mühüm prosessual qərarın insan hüquq və azadlıqlarının təmin olunmasına yardım göstərən amillərdən biridir. Cinayət işlərinin ayrılması müxtəlif cinayət işlərinin istintaqının hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasının mühüm prosessual təminatlarından biri olmaqla yanaşı, eyni zamanda da, cinayətkalığa qarşı mübarizədə cinayət-prosessual qanunvericiliyin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə əlverişli şərait yaradır.

## Biblioqrafiya


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı: Digesta, 2006.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası / C.H. Mövsümovun, B.C. Kərimovun və Ə.H. Hüseynovun redaktəsi ilə, Bakı: Digesta, 2008.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2008.
4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. Bakı: Qanun, 2008.
5. Şərifov M.N. Cinayət işi üzrə icraatın birləşdirilməsi və ayrılması halları / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 4-ci buraxılış. Bakı: Digesta, 2003, s. 219.

**Гулузаде Ф.Р.** ♦

## Обоснованность выделения уголовных дел

**Аннотация:** Рассматриваются проблемы выделения (разделения) уголовных дел, обстоятельства, обосновывающие законность принятых решений.

Исследуются основания и цели выделения уголовных дел, соотношение выделения производства по уголовному преследованию с выделением уголовного дела.

Особое внимание уделено вопросам выделения производства в отношении несовершеннолетних.

Даны предложения по изменению и дополнению уголовно-процессуального законодательства.

**Ключевые слова**: уголовное дело; уголовное преследование; производство; выделение; следователь; прокурор; суд; отдельное рассмотрение; несовершеннолетний.

♦ **Гулузаде Фарадж Расим оглы** – доктор философии права, член Международной организации правовых исследований (Азербайджан). E-mail: mopi_sid@yahoo.com